# İdman mədəniyyətdir

“Region gəncləri arasında idman mədəniyyətinin formalaşdırılması” adlı layihənin icrası davam edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyilə “Gənclərin Mədəni İnkişafına Dəstək” İctimai Birliyi “Region gəncləri arasında idman mədəniyyətinin formalaşdırılması” adlı layihənin icrasını davam etdirir. Layihənin məqsədi 2017-ci ildə Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunları ilə bağlı təbliğat kampaniyasına ictimai dəstək vermək, region gəncləri arasında sağlam həyat tərzinin formalaşdırılması istiqamətində idman yarışlarının təşkil edilməsidir.



Layihə çərçivəsində “Gənclərin Mədəni İnkişafına Dəstək” İB tərəfindən Qəbələ rayonunda Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin təşkilatçılığı ilə layihənin açılış mərasimi və daha sonra idman oyunları keçirildi. Açılış tədbirində Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndəsi Azər Şirinov, Qəbələ Rayon Gənclər və İdman İdarəsinin nümayəndəsi Elçin Osmanov, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun nümayəndəsi Orxan Sədizadə, Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov və Gənclərin Mədəni İnkişafına Dəstək İctimai Birliyinin sədri Cavid Əliyev çıxış edərək ölkəmizdə keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarının əhəmiyyətini vurğuladılar və iştirakçılara uğurlar arzuladılar. Daha sonra gənclər arasında futbol və volleybol üzrə yarışlara start verildi. Gərgin və maraqlı keçən oyunlar 3 gün müddətində davam etdi. Sonda yarışlarda qalib gələn komandalar mükafatlandırıldılar. Məlumat üçün bildirək ki, eyni formatlı yarışlar daha sonra Xaçmaz rayonunda da keçiriləcəkdir.

**Elçin OSMANOV,**
**Qəbələ Rayon Gənclər və İdman İdarəsinin məsul işçisi.**

## Təbrik edirik!



**Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin kollektivi, iş yoldaşları, mərkəzin şöbə müdiri Hüseynov Sədiyar Bəxtiyar oğlunu 60 yaşı tamam olması münasibətilə təbrik edir. Ona cansağlığı, uzun ömür, daha xoş günlər və səadət arzulayır.**

# Gicitkən faydalı bitkidir

Uşaqlıqda hər birimizi gicitkən dalayıb. Onun yanğısının dadını bir dəfə görən həmişəlik kikcitkəndən ehtiyat edir. Sən demə, adamı gicitkənin yarpaqlarından çox onun gövdəsindəki tük kimi nazik, içərisi acı şirə ilə dolu tikanlar dalayır. Bu tikanlar həddindən artıq zərifdir. Onlara toxunan kimi partlayır. Dəriyə düşən şirə kimyəvi yanıqlarda olduğu kimi dərini yandırır. Müəyyən edilmişdir ki, həmin tikanların şirəsinin tərkibi əsasən qarışqa turşusundan ibarətdir.

Gicitkəni əlcəklə yığmaq lazımdır. Pörtləndən sonra gicitkən dalamır. Doğranmış və duzlanmış gicitkən də dalamaq qabiliyyətini itirir. Qurumuş gicitkən isə adi göy yarpaqlardır. Təsərrüfat əhəmiyyətinə görə gicitkən çox nadir bitkidir. Körpə halında o, vitaminliyinə görə bostan-tərəvəz məhsulları ilə yarışa bilər.

Gicitkənin atılmalı yeri yoxdur, hamısı faydalıdır. Kökündən sarı, yarpaqlarından isə yaşıl rəng alınır. Zərif çiçəkləri isə çay kimi dəmlənib içilir. Toxumları quşların ən sevimli dənidir. Toxumlarından çox ətirli yağ da alınır.

Göründüyü kimi, gicitkəni hələ yaxşı tanımırıq. Onun daha ətraflı tədqiqə ehtiyacı var.

**Elnarə Aslan,**
**Bunud kəndi.**

## Müdrik deyimlər

✦Bu dünyada ən təmiz xəzinə ləkəsiz, qüsursuz namusdur.

**V. Şekspir.**

✦Ən xeyirli comərdlik ehtiyacı olanı tapıb ona kömək etməkdir.

**Əbu Süleyma***

✦Gördüyün işi əvvəlcə ağıl tərəzisi ilə ölç.

**Qətran Təbrizi**

✦Məsləhət dinləməyən şəxs, məqsədinə nail olmaz.

✦Kamil insan günəşdən, aydan, ulduzlardan da əzəmətlidir.

**F. Nəsimi.**

✦Axmaq adam başqasını hay-küylə, müdrik adam isə ağıllı və sərrast sözlə heyrətləndirir.

**Human Təbrizi.**

✦Müdriklik heç vaxt itməyən və daim üzərinə qazanc gələn kapitaldır.

**J. Şellinq.**

✦Ağlı kamilləşdirmək üçün çox düşünmək lazımdır.

**R. Dekart.**

✦Özünü idarə edə bilməyən adam, başqasına ağıl verə bilməz.

**Demokrit.**

✦Görmək və anlamaq sevinci Allahın gözəl hədiyyəsidir.

**A.Eynşteyn.**

✦Başqalarının eyibini dəməkdənsə, öz eyibini anla, başa düş.

**Məhəmməd Peyğəmbər.**

✦Ağıl və bilik uğrunda hər şeyi qurban verməyə hazır olan adam heç nəyi itirməz.

**Epiket.**

✦Ağılın azlığından pis xəstəlik, dərd olmaz.

**Hz. Əli**

✦Özgə ağlına ümid bağlayan çox uzağa gedə bilməz.

**Y.Kamal**

✦Əsl gözəllik surətdə deyil, ağıl və kamaldadır.

**F. Köçərli.**

✦Ağıl ilə dövlət əldə etmək olar, dövlətlə ağıl qazanmaq olmaz.

**Keykavus.**

✦Uşaqlarınızı öz zəmanənizə görə yox, gələcək zamana görə tərbiyə edin.

**Hz. Əli.**

**Topladı: A. CƏLİLOV.**

## Xeyirxahlıq

Bir kişi dəniz sahili ilə gedirdi. Birdən uzaqda balaca bir uşağın sahildən nə isə alıb dənizə atdığını gördü. Yaxınlaşdıqda gördü ki, bütün dəniz sahili hələ çabalayan balaca balıqlarla doludur. Uşaq da bir-bir balıqları tutub dənizə atırdı. Amma bütün sahil bu kiçik balıqlarla doluydu. Kilometrlərlə sahəni kiçik balıqlar doldurmuşdu. Bunu görən kişi uşağa dedi:

-Niyə bu balıqları suya atırsan?

Uşaq cavab verdi:

-Səhər güclü dalğalar onları sahilə atıb, indi dəniz sakitdi. Əgər axşam əsən küləyə qədər onları suya atmasam balıqlar öləcək.

Kişi rişxəndlə:

-Axı bu axmaqlıqdır. Bir ətrafına bax! Burada milyonlarla balıq var. Sənin əziyyətin heç nəyi dəyişməyəcək.

Uşaq əyilib yerdən növbəti balığı tutdu və dedi:

-Yox, mənim əziyyətim əlimdəki balıq üçün hər şeyi dəyişəcək-deyərək balaca balığı suya tulladı.

**Türkcədən çevirən**
**Vüsal Səmədov.**

## ELANLAR

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfindən 22 noyabr 1997-ci il tarixdə 25 saylı qərarla Mıxlıqqovaq kənd sakini **Abbasov Tərlan İsmayıl oğlunun və ailə üzvlərinin** adına verilmiş JN 393 nömrəli (kodu 40614018) **Torpağın mülkiyyətə verilməsinə dair Dövlət aktı** və JN 561 A nömrəli (kodu 40614018) **Torpağın mülkiyyə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 aprel 2002-ci il tarixdə 3 saylı qərarla Zarağan kənd sakini **Çələbiyeva Şərqiyə Nüsrət qızının və ailə üzvü Çələbiyev İlkin Habil oğlunun** adına verilmiş JN-345 G nömrəli (kodu 40608018) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası ƏmlakMəsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Qəbələ rayonun Bum kənd sakini **Cəfərov Həsrət Bədrəddin oğluna** verilmiş Reyestr nömrəsi 406013062282 tərtib edilmə tarixi 21.04. 2016, faktiki sahəsi 0,82 hektar olan **Torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

«Qəbələ» qəzetinə

2016-cı ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 15 manatdır.

Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.

## ALLAH RƏHMƏT ELƏSİN

FHN Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Pərviz** və **Ramiz Əliyevlərə**, əzizləri

**QORXMAZ İSBƏNDİYAROVUN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.

Oxucu məktubları geri qaytarılmır.